**UOT 81: 37.016**

***Sevil Mirhəsən qızı İsayeva***
*Mingəçevir Dövlət Universitetinin müəllimi*

# FONETİKA ÜZRƏ DİL MATERİALLARININ ÖYRƏDİLMƏSİNƏ DAİR

***Севиль Миргасан гызы Исаева***
*преподаватель Мингечаурского Государственного Университета*

## ОБ ИЗУЧЕНИИ ЯЗЫКОВОГО МАТЕРИАЛА ПО ФОНЕТИКЕ

***Sevil Mirhasan Isayeva***
*teacher at Mingechaur State University*

## ON THE STUDY OF LANGUAGE MATERIAL IN PHONETICS

**Xülasə**. Məqalə fonetika üzrə dil materiallarının öyrədilməsindən bəhs edir. Məlumdur ki, orta məktəblər cəmiyyət üçün vətəndaşlar yetişdirir. Universitetlər isə ölkənin hərtərəfli inkişaf etməsi, qorunması, beynəlxalq aləmdə nüfuzunun artırılması, əhalisinin sağlamlığı, maariflənməsi və bu kimi işlərin həyata keçirilməsi üçün ixtisaslı kadrlar hazırlayırlar. Öyrənənlər bütün fənlər üzrə bilikləri məhz dil vasitəsi ilə ifadə etməli, başa düşməlidirlər. Bu mənada fonetika üzrə dil materiallarının şüurlu mənimsədilməsi mühüm şərtdir.
***Açar sözlər:*** *dil materialları, fonetika, məktəb, hərtərəfli inkişaf*

**Резюме.** В статье речь идет о преподавании языковых материалов по фонетике. Известно, что средние школы воспитывают граждан для общества. Вузы готовят квалифицированные кадры для всестороннего развития и защиты страны, повышения ее авторитета на международной арене, здравоохранения, образования и так далее. Учащиеся должны выражать и понимать знания по всем предметам посредством языка. В этом смысле сознательное освоение языковых материалов по фонетике является важным условием.
***Ключевые слова:*** *языковые материалы, фонетика, школа, всестороннее развитие*

**Summary.** The article deals with the teaching of language materials on phonetics. It is known that secondary schools educate citizens for society. Universities train qualified personnel for the comprehensive development and protection of the country, increase its prestige in the international arena, public health, education and so on. Learners must express and understand the knowledge of all subjects through language. In this sense, the conscious mastery of language materials on phonetics is an important condition.
***Key words:*** *language materials, phonetics, school, comprehensive development*

Dil bəşər tarixinin, insan dühasının ecazkar və hikmətli kəşflərindəndir. Hər bir xalq öz hisslərini, fikirlərini, təbiəti və cəmiyyəti idrak prosesindəki kəşflərini dil vasitəsi ilə ifadə edir və başqa xalqlara çatdırır. Eyni zamanda, onların kəşflərini dil vasitəsi ilə öyrənir. Beləliklə, dil xalqları yaxınlaşdırmış olur, xalqlar arasında mənəvi rabitə yaradır.

Məlumdur ki, dil cəmiyyətlə bağlı olduğu üçün ictimai hadisədir və ünsiyyət vasitəsi kimi daim xalqın xidmətindədir. Məhz dil vasitəsi ilə insanların hər cür fəaliyyəti mümkün olur. Dili əmələ gətirmək üçün dil faktlarının müəyyən sistem üzrə tam halda birləşməsi tələb olunur [1, s.6].

Ümumiyyətlə, öyrənməyin yolu təhsildən keçir. Belə ki, təhsil cəmiyyəti gələcəyə aparan bir mexanizmdir. Azərbaycan Respublikasının milli təhsil sistemindəki yeniliklər, cəmiyyətin sosial-siyasi sistemindəki dəyişikliklərlə bağlıdır. Vətəndaş cəmiyyətinin qurulduğu bir dövrdə təhsilin innovasiyaları sahəsində tədqiqatların aparılması, inkişaf etmiş qabaqcıl ölkələrin təhsil sistemində qazanılmış yeniliklərin Azər-

baycan təhsil sisteminə gətirilməsinin təmin olunması sahəsində işlərin gücləndirilməsi tələb olunur [2].

Orta məktəblər cəmiyyət üçün vətəndaş yetişdirir. Universitetlər isə ölkənin hərtərəfli inkişaf etməsi, onun qorunması, beynəlxalq aləmdə nüfuzunun artırılması, əhalisinin sağlamlığı, maariflənməsi və bu kimi işlərin həyata keçirilməsi üçün ixtisaslı kadrlar hazırlayır. Bu baxımdan bəşər mədəniyyətinin formalaşmasında universitetlərin rolu danılmazdır. Bəli, universitetlərin formalaşmasının özü də yüksək mədəniyyətin olmasından xəbər verən amildir. Onu da qeyd etməliyik ki, hər bir cəmiyyətin hərtərəfli inkişafında təlim-tərbiyə ocaqları, xüsusilə də universitetlər mühüm rol oynamışdır. Hazırda dünyanın ən güclü inkişaf etmiş ölkələri daha yaxşı inkişaf etmiş təhsil müəssisələrinə – universitetlərə sahibdirlər. Bu da məlumdur ki, sürətli inkişaf edən və dəyişən cəmiyyətləri təmsil edən ölkələrdə universitetlər istər hazırladığı kadrları, istərsə də elmi-texniki nəticələri ilə cəmiyyətin fəaliyyət sahələrinin müəyyənləşməsinə və sürətinə ciddi təsir göstərir. Bu mənada məktəbdə ana dili təlimi yüksək nəzəri səviyyədə təşkil olunmalıdır. Bu yüksək səviyyə, ilk növbədə, dilçiliyin dil haqqında elmi müddəalarına uyğunluqla müəyyən edilir.

Öyrənənlər bütün fənlər üzrə bilikləri də məhz bu dil vasitəsi ilə ifadə etməli, bu dil vasitəsi ilə başa düşməlidirlər. Əgər öyrənənlərə verilən bütün bilik və bacarıqlar ana dilinin yaddaş süzgəcindən keçməyəcəksə, onun daimiliyindən, əbədiliyindən danışmağa dəyməz. Deməli, dil üzrə verilmiş məlumatların şüurlu mənimsənilməsi mühüm şərtdir. Müəllimlər dərslərdə məzmun standartlarından çıxış edərək təlimin məqsədini, ona əsasən dərsin forma və üsullarını, təlim tapşırıqlarını, qiymətləndirmə meyarlarını və vasitələrini müəyyənləşdirməli, tərtib etdikləri cari planı reallaşdırmağa nail olmalıdırlar. Dərslər bütün şagirdlərin təlimə fəal şəkildə cəlb edilməsi, onların idraki, ictimai və fiziki inkişafının təmin olunması və lazımi səviyyədə stimullaşdırılması baxımından təlimin təşkilinə verilən tələblərə cavab verməlidir. Müasir təlimdə Azərbaycan dili üzrə nitq bacarıqlarının formalaşdırılması və inkişafının mətn üzrə iş əsasında qurulduğunu nəzərə almaqla nitq situasiyalarında öyrənənlərə həm dil qaydalarına keçidi təmin etmək, həm də bu qaydaları real nitqə tətbiq etmək üçün mənimsətmək lazımdır. Məhz Azərbaycan dilinin əsas didaktik vəzifəsi öyrənənlərin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Bu səbəbdən ilk olaraq fonetika, leksikologiya, söz yaradıcılığı (derivatologiya), morfologiya, sintaksis üzrə proqrama daxil edilən və mənimsədilən dil qaydalarının nitq inkişafı üçün praktik əhəmiyyəti nəzərə alınmalı, mövzunun tədrisinə ayrılan vaxtdan səmərəli istifadə olunmalıdır. Bu istiqamətdə müəllimin əsas məqsədi öyrənənlərin lüğət ehtiyatını, ədəbi tələffüz, orfoqrafik yazı, cümlə qurmaq və s. vərdişlərini inkişaf etdirməkdir.

Hər hansı bir xalqın dili ümumbəşər dilinin bir formasıdır. Dil də şüur kimi qədimdir. Belə ki, dil insanların bir-biri ilə zəruri olaraq ünsiyyətə girmək ehtiyacından yaranmışdır. Deməli, dil və təfəkkür ictimai əməkdən yaranmış olan ictimai hadisədir; bir-birinə təsir göstərərək cəmiyyətin inkişafına xidmət edir.

Hər bir xalqın özünəməxsus dili olduğu kimi, hər insanın da özünəməxsus dil bacarığı, dil qabiliyyəti vardır. Bu dil bacarığını, dil qabiliyyətini onlara öyrədən məhz ailədə valideynlər, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər, məktəbdə müəllimlər, sosial mühitdə ətrafındakı insanlardır. Müəllimin nitqi mütləq şəkildə ləhcə və şivələrdən fərqli olan ədəbi dilə yiyələnmək üçün şagirdlərə, tələbələrə nümunə olmalıdır. Belə ki, ədəbi dil ümumxalq dilinin yüksək formasıdır. Dilimiz dövlət sənədlərində, elm və sənət əsərlərində əsrin yüksək düşüncələrini təmsil edərək formalaşır, bədii əsərlərdə təkmilləşir, orta və ali məktəblərdə tədris edilir, cilalanır.

Bütün xalqların ədəbi dilləri məhz belə meydana gəlmiş və inkişaf etmişdir..

Dil – faktları, arqumentləri, hissləri; ümumiyyətlə, iç dünya və kənar dünya haqqındakı informasiyanı ötürən verbal ötürücüdür. Dilçi alimlər şagirdlərin əqli inkişafında, nitqinin, əxlaqi keyfiyyətlərin yaxşılaşdırılmasında ana dili təlimini əsas faktor, əsas amil kimi qiymətləndirmişlər.

Azərbaycan dili təliminin ən mühüm vəzifəsi orfoqrafiya və durğu işarələri üzrə möhkəm vərdişlər aşılamaq, həmin vərdişlərin köməyi ilə onları qrammatik hadisələri şüurlu dərk etdirməyə alışdırmaq onlarda şifahi və yazılı nitqi

inkişaf etdirmək, doğma dilə maraq və məhəbbət tərbiyə etməkdən ibarətdir.

Elmlərin əsasını şüurlu mənimsətmək üçün şagirdlərin elmi məfhumlara yiyələnməsi çox vacibdir. Məfhum, adətən, hissi idrakı təşkil edən təsəvvür, qavrayış və duyğular əsasında yaranır, lakin məfhum abstrakt təfəkkürün bir forması olmaqla hissi idrakdan fərqlənir. Əgər hissi idrak formaları olan duyğu, qavrayış, təfəkkür əşyaların yalnız xarici cəhətini əks etdirirsə, məfhum onların daxili mühüm xüsusiyyətlərini əks etdirir. Belə ki, məfhum obyektiv olaraq ümumini əks etdirməklə yanaşı, müxtəlif dillərdə danışan insanlar üçün ümumi şəkildə əşya və hadisələrin mahiyyətini əks etdirir. Öyrənilmiş məfhumun şifahi və yazılı nitqə düzgün tətbiqi əsas şərtdir. Daha doğrusu, nitq və orfoqrafik təcrübə öyrənilmiş qrammatik nəzəriyyənin əhəmiyyətini dərk etməkdə şagirdə kömək göstərir. Öyrənilənləri təcrübədə tətbiq etməyi bacarmaq biliyin şüurlu mənimsənilməsini, şagirdin ümumi inkişafını göstərir.

Təlim prosesində ünsiyyət və mübadilə vasitəsi olan dilin inkişafı müasir ədəbi dil normalarının şüurlu dərk edilməsi ilə əmələ gələn dil hadisələri asan başa düşülür, tələffüz və yazı qaydaları mənimsənilir, ədəbi dilin ayrı-ayrı üslub xüsusiyyətləri öyrənilir.

Müəllim Azərbaycan dili dərsində istifadə edilən metod və həmin metoddan irəli gələn priyom, yol və iş növlərindən düzgün şəkildə, yaradıcılıqla istifadə etməyi bacarmalıdır. Bunlardan istifadə məqamlarını müəyyənləşdirmək, lazım gəldikdə birini digəri ilə əvəz etmək əsas şərtlərdən biridir. Qrammatik çalışmalar dil materialını şüurlu mənimsətmək, şagirdlərə öz fikirlərini həm şifahi, həm də yazılı nitqdə qrammatik və üslubi cəhətdən düzgün və dəqiq ifadə edə bilmək vərdişi aşılayır. Şagirdlərin belə vərdişə yiyələnməsi bu sahədə semantik işlərin düzgün aparılması ilə yerinə yetirilə bilər.

Şagirdlərə orfoqrafik cəhətdən düzgün yazı vərdişləri aşılamaq həm çətin, həm də şərəfli vəzifədir, çünki düzgün yazı yazılı nitqin əsasını təşkil edir. Əvvəlcədən yadda saxlamaq lazımdır ki, şagirdlərə düzgün, savadlı yazı vərdişləri aşılamaq, onlara dilimizin orfoqrafik qaydalarını mənimsətmək o qədər də asan məsələ deyildir. Müəllim bu vəzifənin çətinliklərini əvvəlcədən bilməli və bunlara qarşı təmkinlə mübarizə aparmağı bacarmalıdır.

Yerli şivə ilə bağlı mənbələrə nəzər salaq. Bəzi yerli şivələrdə bir sıra daha möhkəm qaydalar vardır ki, bunlar yazı təliminə, xüsusilə bəzi sözlərin yazılışının öyrənilməsinə mənfi təsir göstərir. Məsələn, Quba dialektində *qoyun* əvəzinə *quyun, çoban* əvəzinə *çuban* deyilməsi bu tipli sözlərin yazılışında çətinlik törədir. Deməli, hər cür vərdiş kimi düzgün orfoqrafik vərdiş də yalnız təmrinlərlə qazanıla bilər.

Azərbaycan dili orfoqrafiya qaydaları o zaman daha şüurlu mənimsənilə və yadda qala bilər ki, həmin qaydalar əlaqəli şəkildə fonetika, söz yaradıcılığı və morfologiya ilə bağlı şəkildə mənimsənilmiş olsun. Məsələn, saitlərdən danışarkən fonetikada saitlərin orfoepiya və orfoqrafiya qaydalarının öyrənilməsi həm bu qaydaların anlaşılmasına, yaddaşda möhkəmlənməsinə kömək edir, həm də saitlərin daha dərindən mənimsənilməsi təmin olunur.

Yeri gəlmişkən qeyd etməliyik ki, hər hansı səs və ya sözün tələffüz qaydalarını – orfoepiyasını öyrədərkən, bunu həmin sözün orfoqrafiyası ilə yanaşı şəkildə apardıqda, həm də həmin sözün orfoqrafiyasını öyrətmiş oluruq. Orfoqrafik cəhətdən düzgün yazı vərdişlərinə yiyələnməkdə dil dərslərində istifadə edilən müxtəlif yazı işlərinin də müstəsna əhəmiyyəti vardır.

Bildiyimiz kimi, qrammatik çalışmaları aparmaqda məqsəd verilmiş bilikləri möhkəmləndirmək, faktlar, nümunələr toplamaq orfoqrafik vərdişləri möhkəmləndirmək, şifahi və yazılı qrammatik bilikləri müstəqil surətdə tətbiq etmək bacarığını aşılamaqdır. Qrammatik çalışmaların köməyi ilə şagirdlərin qazandıqları biliklər möhkəmlənir, dərinləşir, eyni zamanda, orfoqrafiya və nitq inkişafı sahəsində bir sıra vərdişlər aşılanır. Məlumdur ki, çalışmalar fikri əməliyyatın xarakterinə görə də müxtəlif olur. Şagirdlərdən verilmiş söz və cümlələri analiz və sintez etməyi, qarşılaşdırmağı, qruplaşdırıb təsnif etməyi tələb edən çalışmalardan da istifadə olunmalıdır. Çalışmaların belə müxtəlifliyi onların düzgün seçilməsinin sistemlə və ardıcıl aparılmasını tələb edir. Çalışmalar üzrə aparılan səmərəli işlər dərsin yüksək səviyyədə keçməsinə, biliyin yaxşı mənimsənilməsinə və şagirdlərin ümumi inkişafına qüvvətli təsir edir. Onu da qeyd etmək lazımdır ki, aparılan qrammatik təh-

lillər də şagirdlərə yeni qrammatik məlumatı, qayda və qanunları öyrətmək üçün istifadə olunan ən təsirli vasitələrdən biridir. Qrammatik təhlil şagirdlərə qrammatikadan aldıqları bilikləri təcrübədə tətbiq etməyə imkan verir. Belə ki, qrammatik təhlil şagirdin diqqət və vərdişlərini nizama salır. Belə təhlil təkrar üçün, biliyi möhkəmləndirmək və yoxlamaq üçün ən yaxşı vasitədir. Bu cəhətdən fonetik təhlil həm düzgün tələffüz qaydalarının, həm də savadlı yazının öyrənilməsinə həsr olunduğundan praktik olaraq çox böyük əhəmiyyət kəsb edir. Şagirdlər ana dilində səlis danışmağı özlərinə vəzifə borcu bilməlidirlər və bu istiqamətdə onlara nümunə ola biləcək adamlardan örnək götürməlidirlər. Ümummilli lider Heydər Əliyevin nitqi hamımız üçün örnəkdir. Belə ki, söz bəşərin nəfəsidir, fikri və düşüncəsidir. Bu mənada dahilərin nitqindən nümunə götürməyi bacarmaq bir vəzifə borcumuz olmalıdır.

Cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, dövlətin inkişaf strategiyası kimi mühüm amillər təhsilin məqsəd və vəzifələrini, təlimin məzmununu, xüsusilə metodları və texnologiyasını yeniləşməyə məcbur etmiş, bu yeniləşmə cəmiyyət quruculuğunun fəal amilinə çevrilmişdir [3].

Ulu Öndər yazırdı ki, cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, dövlətin inkişaf strategiyası kimi mühüm amillər təhsilin məqsəd və vəzifələrini, təlimin məzmununu, xüsusilə metodları və texnologiyasını yeniləşməyə məcbur etmiş, bu yeniləşmə cəmiyyət quruculuğunun fəal amilinə çevrilmişdir [3].

Cavanşir, Babək, Şah İsmayıl Xətai kimi sərkərdə və dövlət xadimləri Azərbaycanın dövlətçilik tarixinin bütöv bir salnaməsini yaradıblar. Bu şəxsiyyətlərin şanlı ömür və fəaliyyət yolu xalqımızın vətənpərvərlik hisslərini gücləndirib, müstəqillik və dövlətçilik təcrübəsini zənginləşdirib, həyatımızın ən vacib, ümdə məqsədinə çevirib. Onların yaratdığı dövlətçilik ənənələri yüzilliklər boyu, o cümlədən XX əsr ərzində uğurla davam və inkişaf etdirilib [3. s. 249].

Cəmiyyətdə gedən ictimai, iqtisadi dəyişikliklər, dünyada gedən qloballaşma, eləcə də elmi-texniki tərəqqi təhsilin ehtiyaclarını müəyyənləşdirən əsas amillərdir. Təlimin məzmununa dair vacib sənədlərin ən ümdəsi insanın hüququnu əks etdirən Azərbaycan Respublikasının konstitusiyası və Azərbaycan Respublikasının Təhsil Qanunudur. Təhsil qanunu normativ sənəddir və Təhsil sisteminin fəaliyyəti onunla tənzimlənir. Bunlardan sonra isə tədris planı, proqram və dərsliklər gəlir və hər bir fənnin mövcudluğu tədris planından başlanır [4].

Biz xalq olaraq çalışmalıyıq ki, dilçi alimlərimiz dilimizin təravətini, ətrini, əbədiliyini və ölməzliyini əks etdirən yüksək elmi-nəzəri səviyyədə yazılmış əsərləri ilə dünya dilçiliyində özlərinə layiq yer tutsunlar.

Bu gün Azərbaycan təhsili Ulu Öndərin siyasi kursunu davam etdirən prezident İlham Əliyevin rəhbərliyi ilə özünün yüksək inkişaf mərhələsini yaşayır və xalqımız bu müqəddəs yolda öz ölkə başçısını daim dəstəkləyir. Dilimiz yaşayır, inkişaf edərək daha da zənginləşir və dünyanın diqqətini özünə cəlb etməyi bacarır.

**Problemin aktuallığı.** Tədris prosesində tələbələrin dil bacarıqlarını təmin edir, passivliyi aradan qaldırır, nitqi zənginləşdirir, çevikliyi artırır.

**Problemin yeniliyi.** Fonetikanın imkanlarından istifadə auditoriyanı daha effektiv idarə edərək tələbələri dərsə cəlb etmək imkanı yaradır.

**Problemin praktik əhəmiyyəti**. Qrammatikanın imkanlarından düzgün istifadə tələbə və şagirdlərin orfoqrafik və orfoepik vərdişlərə yiyələnməsi üçün praktik əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Məmmədov, N. Dilçiliyə giriş. / N. Məmmədov, A. Axundov. – Bakı, 1980, – s.315.
2. Heydər Əliyev və müstəqil Azərbaycan , – Bakı, – 2003.
3. "Şəxsiyyətin qüdrəti", – Bakı: Yazıçı, – 2012, – 304 s.
4. Fəal təlim üzrə nümunəvi dərslərin toplusu. Dərs vəsaiti. İ cild. UNİSEF, – Bakı, – 2001.

**E-mail:** sevil_Hesenova57@mail.ru

**Rəyçilər:** *ped.ü. fəls.dok*. **Z.M. Əzizova,**
*ped.ü. fəls.dok*. **X.A. Talıbova**
**Redaksiyaya daxil olub:** 16.04.2022.